Aqil ABBAS



# ONUN ƏN BÖYÜK VƏZİFƏSİ ETİBAR BABAYEV OLMAQDIR

*Məndən cəmi üççə yaş böyükdü. Dekabrın 15-də 75 yaşı tamam olacaq. Amma ilk tanıdığım gündən - 50 il bundan qabaqdan danışıram, yəni cavan oğlan idi, ona ağsaqqal kimi baxırdım. Təbii ki, ağsaqqallıq yaşa baxmır, o, öz mədəniyyəti ilə, səmimiyyəti ilə, geniş dünyagörüşü ilə, ədəbi ilə qazanmışdı hələ gənc yaşlarından ağsaqqallığı.*

*Bir komsomol təşkilatı vardı, təbii ki, bu təşkilatda işləyənlər gənclər idi. Çox təmiz təşkilat idi, bu təmiz təşkilatda da təmiz oğlanlar işləyirdi və komsomol çörəyi yeyirdilər, yəni təmiz çörək. Rüşvətdən uzaq, intriqalardan uzaq, yalnız mehribançılığı və səmimiyyəti özündə ehtiva edən bir çörək. Və bu komsomol dostluğu əsgər dostluğu kimi bir şeydi. İnsan heç vaxt əsgərlik dostlarını ömrünün sonunadək unutmadığı kimi, bu komsomol dostluğu da ömrünün sonunadək davam edir. Çünki təmənnasız dostluqdur.*



*Bu təşkilatın dağılmasından təxminən 35-36 il keçsə də, amma həmin dostluq bu gün də unudulmur.*

*Çox təəssüf ki, indi Azərbaycan gənclərini birləşdirən belə bir təşkilat yoxdur. Məsələn, Gənclər Nazirliyi var, amma bütün Azərbaycan gənclərini öz ətrafında birləşdirə bilməyib. Burda siyasi partiyaların da günahı var, çünki hər partiya özü üçün bir gənclər təşkilatı yaradıb.*

*Etibar Babayevlə komsomol dostluğum yoxdur, çünki onda Etibar müəllimi görəndə kənara çəkilib yol verirdim, bəlkə də heç məni tanımırdı. Onda mən Komsomol Mərkəzi Komitəsinin xətti ilə bir jurnalist kimi Baykal-Amur Magistralına bir aylıq ezamiyyətə göndərilmişdim. Yəni ömrumün təxminən altı ayını Komsomolun Mərkəzi Komitəsində ştatdankənar çalışdım.*

*Onda Etibar Babayevə həsədlə baxırdım. Çünki o, Azərbaycanın görkəmli şairi Adil Babayevin oğlu idi.*

*Sonralar onu Bakı şəhər Partiya Komitəsinə apardılar, orda çalışanda da qapısı həmişə ədəbiyyat, mədəniyyət və incəsənət işçilərinin üzünə açıq idi. Hamısına kömək etməyə çalışırdı.*

*Tale elə gətirdi ki, müəyyən vaxt keçdi biz Etibar Babayevlə ailəvi dost olduq. Bir-birimizin evini öz evimiz saydıq, Etibar Babayevin anasını da anamız. Novxanıdakı bağ evində anası Gülnar xanımın hazırladığı gözəl təamların dadı adamın damağından getmir. Mənim anam da belə gözəl, dadlı yeməklər bişirərdi.*

*SSRİ dağıldı, həmin illərdə Türkiyə ilə münasibətimiz indiki kimi qardaşlıq səviyyəsində deyildi. Süleyman Dəmirəl Allahın bir vertolyotunu da bizə qıymadı. Həmin illərdə Etibar Babayev Azərbaycanla Türkiyə arasında mədəni əlaqələrin yaranmasında böyük bir rol oynadı. Sanki Türkiyənin Azərbaycandakı, Azərbaycanın isə Türkiyədəki səfiri idi. Türkiyənin sənət adamlarının, mədəniyyət xadimlərinin Azərbaycana, Azərbaycanın sənət və mədəniyyət şəxsiyyətlərinin Türkiyəyə ayaq açmasında Etibar Babayevin çox mühüm rolu oldu.*

*Xalqımızın çox sevdiyi Barış Manço tez-tez Etibar müəllimin dəvəti ilə Bakıya gəlirdi və xalqımıza böyük məhəbbətini izhar edirdi.*

*Ulu Öndər Heydər Əliyev Etibar Babayevin Türkiyə və Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsində göstərdiyi əməyi çox yüksək qiymətləndirirdi. Bəlkə də Etibar Babayev yeganə adam idi ki, ürəyi istəyəndə Heydər Əliyevin evinə gedib-gələ bilirdi.*

*Azərbaycanda "Space" radiosunun təsisçisi oldu və yaratdı. Sonra isə gərək ki, 2001-ci ildə "Space" televiziyasına sədr təyin edildi. Bu kanal başqa kanallardan fərqləndi. Əsl bir ziyalı kanalına çevrildi, səhər proqramından tutmuş gecə kanalına qədər. "Space" dövlətçilik, mədəniyyət, incəsənət və bir ziyalı kanalı idi. Onun zamanında Azərbaycanın görkəmli şəxsiyyətləri haqqında bir çox sənədli filmlər çəkildi. Çox təəssüf ki, indi o filmlər göstərilmir. Mənim üçün çox xoşdur ki, daha doğrusu, fəxr edirəm ki, o tarixi sənədli filmlərin altısı mənim xanımım İradə Tuncayın yaratdığı filmlər idi.*

*Çox təəssüf ki, ömrünün ən müdrik çağlarında, təxminən 55 yaşında televiziyadan ayrıldı, daha doğrusu, ayırdılar. Və iyirmi ildir ki, belə bir ziyalı, belə bir işıqlı adam heç harda işləmir.*

*Amma təəssüf etməyə dəyməz, onun ən böyük vəzifəsi elə Etibar Babayev olmaqdır ki, bu vəzifəni də ləyaqətlə daşıyır.*

Ədalət .- 2025.- 12 dekabr (№47).-S.14.